# Tarixin üfüqləri nura boyandı

**Bu günlərdə "Azərbaycan" nəşriyyatında "Kredo" qəzetinin baş redaktoru şair-publisist Əli Rza Xələfliylə görüşdüm. Bir-birimizdən hal-əhval tutandan sonra yeni işıq üzü görmüş "Kredo" qəzetinin son nömrəsini mənə verdi. Elə qəzetin üz səhifəsində dəyərli eloğlumuz, AMEA-nın müxbir üzvi gözəl insan, uzun illər Tibb universitetinin rektoru olmuş Yaqub Məmmədovun 80 illik yubileyi haqqında "İki od arasından keçən yol" başlıqlı bir yazı verilmişdi. Yazını oxuyub qurtarandan sonra Əli Rza Xələfliyə öz təşəkkürümü bildirdim.**

**Əli Rza Xələfli məmnun olduğunu bildirib dedi ki, "Azərbaycan" jurnalının ikinci nömrəsini tapıb oxumağınızı da məsləhət bilirəm. Jurnalda mənim bir poemam verilib. Mən jurnalı tapıb Əli Rza Xələflinin "Yaddaş" poemasını oxudum.**

***

"Dönməzlik yolu" (Yaddaş - poema) əsəri Azərbaycan Xalq Cümhuriyyəti qurucularının əziz xatirəsinə həsr olunub. Poema çox gözəl bir başlıqla başlayır:

**Dilimin şirin sözü ilhamıma mayadır,**
**Qəlbimin qanadıdır, yurdum Azərbaycandır.**
**Babalardan əmanət, nəsillərə yadigar,**
**Nəvəmin muradıdır - yurdum Azərbaycandır.**

Poemanın başlanğıcında müəllif sanki bütün insanlara səslənir ki, insan övladı kiçik yaşlarından gözəl sözlərlə mayalanıb. Vətənə, elinə, obasına vurğun olmalı, babalarından miras qalmış torpağı yaşatmağa, qorumağa borcludur. Və yaxud başqa bir bəndində yazır:

**Tarixi od içində yanan odlu diyardır,**
**Həsrəti sinəm üstə acı dərddir, qubardır.**
**Əziz atam, anamdır, o gül üzlü bir yardır,**
**Ruhumun inadıdır - yurdum Azərbaycandır.**

Müəllif Azərbaycanın odlar yurdu, odlar diyarı olduğunu və tarixlər boyu yadellilər tərəfindən parçalandığını, yağmalandığını oxuculara çox gözəl çatdırır. Ata-babalarımızdan qalmış Vətənimizi gələcək nəsillərə inamla ötürək ki, ata-babalarımızın ruhları şad olsun.

Şair poemada haqqlı olaraq qeyd edir ki, 1905-1915, 1918-ci illər Çar Rusiyası tərəfindən dəstəklənən daşnak ermənilər Azərbaycanın bir hissəsini işğal etmiş, Azərbaycan torpağı hesabına erməni dövləti yaratmışdır.

**General Mehmandarov, Şıxlinski Əliağa,**
**Vətəni qaranlıqdan çıxaracaq işığa.**

Şair bu misrada demək istəyir ki, Azərbaycanın mərd oğlanları olan general Mehmandarov, Əliağa Şıxlinski bu xalqı, eli, obanı daşnakların əlindən qurtaracaqdır. Türkiyəni Şərqdə ilk olaraq Azərbaycan Cümhuriyyətini qurmuş dövlətin müdafiəsinə köməyə çağırır. Həmin vaxt Azərbaycan Cümhuriyyətinin səsinə səs verən ilk ölkə qardaş Türkiyə olmuşdur. Türkiyədən Nuri Paşanın başçılığı ilə türk əsgərləri Azərbaycanın köməyinə gəlir. Daşnaklar Azərbaycanın bir neçə rayonunda - Salyan, Kürdəmir, Şamaxı, Quba və başqa yerlərdə camaatın ev-eşiklərinə od vurub yandırırdılar.

Daşnaklar Nuri Paşanın ayaqlarını qucaqlayıb bildirir ki, bir səhvdir etmişik, bizi öldürməyin, biz bu yerləri tərk edib gedirik.

**Azərbaycan-Tüküstan böyük Turan ürəyi,**
**Böyük Turan yolunda türkün vuran ürəyi.**

Ancaq zaman-zaman parçalanan Vətən Sovetlər İttifaqı tərəfindən hər zaman təzyiqlərə məruz qalır.

İki illik Azərbaycan Cümhuriyyəti Rus imperiyası tərəfindən (bolşeviklər) zəbt olunur. Vətənin mərd oğulları olan Məhəmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Behbudxan Cavanşir, Mustafa bəy Vəkilov və neçə-neçə oğullar öz doğma yurdlarından didərgin salındı. Bəzirləri isə Sovet imperiyası tərəfindən qəddarcasına güllələndi.

Poemanın əsas qəhrəmanlarından biri Məmməd oğlu Salmandır. Müəllif qeyd edir ki, Salman Məmməd oğlu əslən Gədəbəydəndir. O, Vətənin çətin günündə gəlib Nuri Paşanın ordusuna qoşulur. Və bildirir ki, bu meydanda bu gün mənə ehtiyac var. Beləliklə, iki qürur, sevinclər aşdı-daşdı, Nuri Paşanın dolmuş gözləri gülür, deyir ki, baş əyirəm sənin atanın, ananın qarşısında.

Azadlığın dadını millət gördü, oyandı,
Tarixin üfüqləri işıqlığa boyandı.

Əli Rza Xələfli iki illik müstəqillik dövrünü çox gözəl tərənnüm edib. Xalq artıq müstəqilliyin dadını dadmışdı, ancaq Lenin bu xalqın taleyini qara kürkə bürümüşdü. Xalqın varı, dövləti, sərvəti bolşeviklər tərəfindən talandı hər şey zamanın hökmünə qaldı. Turanın azadlığı qan gölündə boğuldu. Əlləri xalqın qanına batmış Bolşevik imperiyası yarandı. Bu imperiya azadlıq aşiqlərini hər yerdə izləyir, təqib edirdi. Vətən sözünü deyənin dilini kəsirdilər.

**Hər yerdə gəzirdilər türkü sevən kəsləri,**
**Divana çəkirdilər, Vətən deyən səsləri.**

Bu zillətə, əzaba dözməyən xalq Gəncədə üsyana qalxır. Həmin üsyandan sonra təqiblər başlayır. Salman Məmməd oğlu, Firudin bəy Köçərli tutulub həbisxanaya salınır. Firudin bəy Köçərli Salman Məmməd oğluna (Salman Dönməz) bəzi məsləhətlər verir. Deyir ki, heç vaxt "Dönməz" təxəllüsünü götürmə istintaq vaxtı bildirir ki, mən Salman Məmməd oğluyam. Ola bilsin ki, Salman Dönməz də var. Gecənin birində Firudin bəy Köçərlini aparırlar, ancaq o, bir daha geri qayıtmır. Növbə Salman Məmməd oğluna çatır. Hakim Salman Dönməz kimdir? - deyəndə Salman bildirir ki, ola bilsin ki, o adda bəlkə kimsə var, ancaq mən Salman Məmməd oğluyam. Salman azadlığa buraxılır. Onu bolşeviklər izləməyə başlayır. Nuri Paşa Salmanı Türkiyəyə dəvət edir. Deyir ki, sən burada general rütbəsinə qədər yüksələrsən, sonra öz elinə, Vətəninə general kimi qayıdarsan. Ancaq Salman Nuri Paşanın bu təklifinə razı olmur. Salman Məmməd oğlunun üzünə saxta şahidlər qoyularaq həbs edilib güllələnmə hökmü altında saxlanılır. Beləcə təqiblərlə yaşayıb ömrünü başa vurur.

**Alnabatda bir məzar - o günlərdən nişandı,**
**Türk əsgəri adına ölməz şöhrətdi, şandı.**

Şair çox gözəl araşdırma aparmış, Gədəbəy rayonunun Alnabat kəndindən olan Salman Məmmədoğlu (Dönməz) haqqında və Cümhuriyyətimizin yaradıcıları, qurucuları haqqında tarixi poema yazıb. Və bu yazıda keçmiş tariximiz nura boyanıb.

Ədəbiyyatımızın görkəmli nümayəndəsi Əli Rza Xələfliyə yeni-yeni yaradıcılıq uğurları arzulayıram!



**Hüseyn Məmmədov**
**"Bütöv Azərbaycan" ın xüsusi müxbiri**